**Napoleon Hill**

# UĞURUN QANUNU:

## On altı dərsdə

Tərcüməçi:
Müqəddəs Şahbazov

qanun nəşriyyatı

**Napoleon Hill**

# THE LAW OF SUCCESS:

## In Sixteen Lessons

Uğurun ümumdünya cazibə qanunu kimi konkret və dəyişməz qanunları var. Bu qanunlar "yaşamaq uğrunda savaş"da qalib gəlməyə kömək edir. "Mürgülü imkanlar"ı oyadır. "Həyat dənizində məqsədsiz üzənlər"i öz taleyinin kapitanına çevirir. Necə? Bunu sizə əlinizdəki kitab öyrədəcək. Dünyanın ən uğurlu müəllifinin ən uğurlu kitabı kimi...

Müəllif özünün və müxtəlif iş adamlarının avtobioqrafiyasına əsaslanaraq oxucuya "özünü kəşf etmək" imkanı verir. Uğura gedən yolda əsas maneəyə çevrilən "şəxsi zəifliklərdən qurtulmaq strategiyası"nı öyrədir. Bütün proses özünü tərbiyələndirmə ilə bağlı psixoloji sistemə uyğun aparılır.

**Napoleon Hill THE LAW OF SUCCESS: In Sixteen Lessons**
**Napoleon Hill UĞURUN QANUNU: On altı dərsdə**
Bakı, Qanun Nəşriyyatı, 2024, 448 səh.

Janr: non-fiction/özünüinkişaf
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 18.02.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Müqəddəs Şahbazov
Redaktor: İradə Akifqızı
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-756-0

© Qanun Nəşriyyatı, 2024
© Napoleon Hill, 1928

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

## MÜƏLLİFİN ŞƏXSİ BƏYANATI

Hər dəmir yolu, hər məşhur maliyyə institutu, hər nəhəng biznes müəssisəsi, hər böyük ixtira hansısa bir adamın təxəyyülündə yaranıb.

F.U.Vulvort “Beş və on sentin planı”nı əvvəlcə öz “təxəyyül”ündə qurub və yalnız sonra reallığa çevrilən bu plan onu milyonçu edib.

Tomas A.Edison danışan maşını, dünyaya hərəkətli şəkilləri bəxş edən cihazı, qeyri-adi parlaq elektrik lampasını və onlarla başqa faydalı ixtiranı onlar reallığa çevrilməmişdən əvvəl öz xəyalında yaradıb.

Çikaqoda yanğın zamanı onlarla tacir öz mağazalarının tüstülənən qalıqlarının yanında durub dərd çəkirdi. Çoxları başqa şəhərlərə köçməyə və işlərinə yenidən başlamağa qərar verdilər. Marşall Fild də bu dəstədə idi. O, öz təxəyyülündə əvvəlki mağazasının közərən qalıqlarının yerində dünyada ən böyük univermağı gördü. Və bu fikir reallığa çevrildi.

Bizim əsrdə, bu böyük imkanlar dövründə həyat yolunun lap başlanğıcında öz təxəyyülündən istifadə etməyi öyrənən gənc adam xoşbəxtdir.

Təxəyyül – ağılın yetişdirilə, inkişaf etdirilə, gücləndirilə və genişləndirilə bilən xüsusiyyətidir. Əgər bu, belə olmasaydı, uğurun on beş qanunundan ibarət hazırkı kurs heç vaxt yaranmazdı, çünki əvvəlcə mərhum Endrü Karneginin təsadüfən qeyd etdiyi fikrin sayəsində müəllifin təxəyyülündə törənib.

Harada olmağınızdan, kimliyinizdən, məşğuliyyətinizdən asılı olmayaraq, təxəyyülünüzün inkişafı sayəsində hər zaman daha faydalı, daha məhsuldar olma imkanınız var.

Uğur – həmişə fərdi səylərin nəticəsidir, amma əgər başqa insanlarla əməkdaşlıq etmədən müvəffəqiyyət qazanacağınızı güman edirsinizsə,

özünüzü aldadırsınız. Uğur yalnız o baxımdan fərdi səylərin nəticəsidir ki, hər kəs nə istədiyini özü qərarlaşdırmalıdır. Bu qərar təxəyyüldən istifadə ilə bağlıdır. Həmin andan uğur qazanmaq isə ətrafdakılarla əməkdaşlığa nail olmaq məqsədilə onlara məharət və ədəblə təsir etməkdən asılıdır.

Amma ətrafındakılarla əməkdaşlığa nail olmazdan əvvəl, yox, onlardan bu haqda xahiş edənə qədər siz özünüz əməkdaşlıq etməyə qadir olduğunuzu göstərməlisiniz. Məhz bu səbəbdən kursun doqquzuncu dərsi – iş üçün ödəniləndən artıq işləmək vərdişi – diqqətinizi xüsusilə cəlb etməlidir. Bu dərsin əsaslandığı qanunun tətbiqi bütün müəssisələrdə müvəffəqiyyəti təmin edəcək.

Birinci dərsin sonunda öyrənmək və müqayisə etmək üçün on yaxşı tanınmış insanın keyfiyyətlərinin təhlil edildiyi şəxsi analiz xəritəsini tapacaqsınız. Bu xəritəni diqqətlə öyrənin və "təhlükə nöqtələri"ni qeyd edin, onlar bu siqnallara fikir verməyənlər üçün uğursuzluq deməkdir. Təhlil edilən on adamdan səkkizi böyük uğur qazanıb, ikisinin isə işi alınmayıb. Onların uğursuzluğunun səbəblərini diqqətlə öyrənin.

Sonra özünüzü öyrənin. Bu məqsədlə iki boş sütun yaradılıb; öyrəndiyiniz kursun başlanğıcında və sonunda uğurun on beş dərsinin hər birində özünüzə qiymət yazın və yaxşılaşmanın özünü nədə göstərdiyini qeyd edin.

"Uğurun qanunu" kursunun məqsədi sizə seçdiyiniz fəaliyyət sahəsində daha qabiliyyətli olmağın yollarını anlamaq imkanını verməkdir. Bu məqsədlə öz məlumatlarınızı təhlil edib qiymətləndirməli və onları daha yaxşı istifadə etmək üçün təsnifləşdirməlisiniz. Məşğul olmağa başladığınız iş xoşunuza gəlməyə bilər.

Bu işlə qurtarmağın iki üsulu var. Birincisi, gördüyünüz işə az diqqət yetirin, təki ondan "qurtulasınız". Və siz çox tezliklə hər şeylə qurtaracaqsınız, çünki artıq xidmətlərinizə tələb olmayacaq.

İkinci və ən yaxşı üsul, hal-hazırda məşğul olduğunuz işdə faydalı və effektiv olmağınızdır, bununla da sizi irəli çəkməyə və sizə çox sevdiyiniz, daha məsuliyyətli işi təklif etməyə imkanı olanların diqqətini cəlb edə bilərsiniz.

Yolunuzu özünüz seçməlisiniz.

Mən sizə kursun doqquzuncu dərsinin əhəmiyyətini yenidən xatırladıram; onun köməyilə siz irəliləmənin bu “ən yaxşı yoluna” qədəm qoya bilərsiniz.

Kalumet mis mədəninin olduğu yerdən minlərlə adam heç nə görmədən keçirdi. Yalnız bir nəfər öz təxəyyülündən istifadə edib yerin bir neçə fut dərinliyinə diqqət yetirdi, burada tapılanları tədqiq etdi və dünyanın ən zəngin mis filizi yataqlarını aşkar etdi.

Hər bir insan vaxtaşırı şəxsi “Kalumet şaxtası”nın üstündən keçir. Kəşf – tədqiqatın və təxəyyüldən istifadənin nəticəsidir. “Uğurun on beş qanunu” kursu sizi şaxtanıza gətirib çıxara bilər, siz isə bütün vaxt hazırda istismar etdiyiniz ən zəngin mədənlərin üzərində durduğunuzu görəndə təəccüblənəcəksiniz. Rassell Konvell özünün “Brilyantların akrı” mühazirəsində bizə deyir ki, imkan üçün uzağa getmək lazım deyil: o, düz biz durduğumuz yerdədir! BU HƏQİQƏTİ YAXŞI YADDA SAXLAMAQ LAZIMDIR!

Bu kurs öz işində böyük nailiyyətlər əldə etmiş yüzdən artıq insanın həyat və fəaliyyətinin ətraflı təhlilinin nəticəsidir.

Müəllif, əsasən, Henri Forda və Endrü Karnegiyə borcludur. Kursu yazmağı Karnegi birinci təklif edib, Henri Fordun həyat və fəaliyyəti isə ona daha çox material verib.

Adları çəkilən insanların bəziləri artıq ölüb, sağ olanlara isə köməyə görə müəllif ürəkdən təşəkkür edir. Onların köməyi olmasaydı, bu kurs heç vaxt yaranmazdı. Müəllif bu insanların əksəriyyətini şəxsən yaxından öyrənib. O, onların bir çoxu ilə dostluq edib və indiyə kimi dostdur. Başqa şəraitdə lazımi faktları toplaya bilməzdi.

Bu adamlar Amerika biznesinin, maliyyəsinin, sənayesinin və ticarətinin təməlini, əsasını təşkil edirlər.

“Uğurun qanunu” bu insanlardan hər birinə seçdikləri fəaliyyət sahəsində böyük nüfuz sahibi olmağa imkan verən fəlsəfə və fəaliyyət qaydalarını xülasə edir.

Kursu aydın zehinlə öyrənməyə başlayanların, oxuduqları bütün vaxt ərzində ağılı “açıq” saxlamağa çalışanların mükafatı daha geniş və düzgün dünyabaxışına yiyələnmələri olacaq.

***Napoleon Hill***

## *Birinci dərs*

# ÜSTÜN AĞIL

***Siz bunu onda edə biləcəksiniz ki, edə biləcəyinizə inanacaqsınız!***

Bu kurs uğurun əsaslarına həsr olunur.

Uğur – harmoniya və tarazlığı gözləmək şərtilə müxtəlif və daim dəyişən həyat şərtlərinə bir çox cəhətdən uyğunlaşmaq bacarığıdır. Harmoniya ətrafı təşkil edən güclərin mahiyyətini anlamağa əsaslanır; ona görə də bu kurs, əslində, həyata keçirilməsi birbaşa uğura aparan plandır, çünki onu öyrənənə həyatın bu güclərini aydınlaşdırması, anlaması və istifadə etməsi üçün kömək edir.

Öyrənməyə başlamazdan əvvəl "Uğurun qanunu" kursunun tarixi haqqında bəzi şeylərdən agah olmalısınız. Siz əsaslandığı qanun və prinsiplərə tam yiyələnmədən ona əməl edənlərə kursun nə vəd etdiyini dəqiqləşdirməlisiniz. Kursun imkanlarının sərhədlərini və onun dünyada öz yeriniz uğrunda mübarizədə sizə hansı köməyi göstərəcəyini bilməlisiniz.

Ən böyük uğura nail olmuş insanlar bir nəticəyə nail olmazdan əvvəl öz zəifliklərinin öhdəsindən gəlməli idilər. DÖZÜMSÜZLÜK, ACGÖZLÜK, TAMAHKARLIQ, QISQANCLIQ, ŞÜBHƏLİLİK, QİSAS, EQOİZM, YALAN, BAŞQASININ MALINA GÖZ DİKMƏK TENDENSİYASI, QAZANDIĞINDAN DAHA ÇOX XƏRCLƏMƏK VƏRDİŞİ uğurla insanın arasında duran ən bariz zəifliklərdir.

Bəşəriyyətin bütün bu yayılmış bəlaları və burada qeyd olunmayan bir çox şeylər "Uğurun qanunu" kursunda elə təhlil edilir ki,

istənilən arzu edən, hətta məhdud intellekti olan şəxs də azacıq səy göstərməklə kursa yiyələnə bilər.

Bəri başdan bilməlisiniz ki, "Uğurun qanunu" kursu sınaq mərhələsini çoxdan keçib, o, çoxlarına nailiyyətlər qazanmağa kömək edib və bu nailiyyətləri başa düşüb təhlil etməyə dəyər.

"Uğurun qanunu" kursu əvvəlcə mühazirələr şəklində təqdim olunub, yeddi ildən çox müddət ərzində Birləşmiş Ştatların, demək olar ki, bütün şəhərlərində müəllif tərəfindən oxunub. Mümkündür ki, siz bu mühazirələrin minlərlə dinləyicisi arasında olmusunuz.

Bu mühazirələr zamanı müəllifin assistentləri auditoriyada oturub dinləyicilərin reaksiyasını qeyd edirdilər, beləliklə, müəllif mühazirələrinin necə təsir etdiyini dəqiq bilirdi. Bu materialların öyrənilməsi nəticəsində kursda xeyli dəyişiklik edilib.

"Uğurun qanunu" fəlsəfəsi ilk böyük qələbəni müəllif ondan tacir olmaq istəyən üç min adam üçün oxunmuş kursun əsası kimi istifadə edəndə qazanıb. Bu insanların əksəriyyətinin ticarət sahəsində heç bir təcrübəsi yox idi. Təlim nəticəsində onlar altı ay ərzində milyon dollardan çox qazana bildilər və müəllifə xidmətlərinə görə otuz min dollar ödədilər.

"Uğurun qanunu"nun fəlsəfəsi Ohayo ştatının Kanton şəhərində "Daily News"-un naşiri mərhum Don R. Mellettin diqqətini cəlb etdi, o, müəllifin tərəfdaşı oldu. Don R. Mellett müəllifin işləri ilə məşğul olmaq üçün Kantondakı "Daily News"-un rəhbərliyindən imtina etməyə hazırlaşırdı, lakin təəssüf ki, o öldürüldü.

Ölümündən bir az əvvəl mister Mellett o zaman "United States Steel Corporation"-in direktorlar şurasına başçılıq edən hakim Elbert H. Qeri ilə razılığa gəlmişdi ki, korporasiyanın bütün qulluqçuları yüz əlli min dollar müqabilində kursla tanış olacaqlar. Hakim Qeri öldüyünə görə bu plan baş tutmadı, lakin onun bu məbləğə – yüz əlli min dollar – razılaşması kursun faydalı olduğunu sübut edir.

Kursun giriş dərsində, ola bilsin ki, siz tanış olmadığınız bir neçə texniki terminlə qarşılaşacaqsınız. Qoy bu, sizi narahat etməsin. Kursun on beş dərsi üçün giriş yalnız zəmindir və siz onu məhz belə qəbul etməlisiniz. Bu fəsil üzrə heç bir imtahan verməyəcəksiniz,

amma siz onu bir neçə dəfə oxumalısınız, hər oxuyanda isə sizdə yeni fikirlər və ideyalar yaranacaq.

Bu dərsdə siz bütün şəxsi nailiyyətlərin bünövrəsi olan psixologiyanın qanununun təsvirini tapa bilərsiniz. Müəllif hər hansı məsələnin həlli üçün birgə səy göstərən iki və daha çox sayda adamın ahəngdar əməkdaşlığından yaranan ağılı nəzərdə tutaraq bunu Üstün ağıl qanunu adlandırır.

Əgər siz ticarətlə məşğulsunuzsa, öz gündəlik işinizdə Üstün ağıl qanunu ilə eksperiment keçirə bilərsiniz və bu sınaq sizə fayda gətirəcək. Müəyyən edilib ki, altı və ya yeddi tacirdən ibarət qrup bu qanundan elə effektiv istifadə edə bilər ki, malların satışı kəskin artar.

Yer üzündə həyat sığortası satmaq çox çətindir. Belə olmamalıdır, amma bu belədir. Buna baxmayaraq, "Ağıllı həyat" ("Prudential Life") sığorta şirkətinin əvvəllər sığorta polislərini güclə sata bilən az sayda əməkdaşı Üstün ağıl qanununu təcrübədə yoxlamaq üçün birləşdi və nəticədə sonrakı üç ay müddətində qrupun hər üzvü bütün əvvəlki il ərzində satdığından daha çox polis satdı.

Bu prinsipi tətbiq edən kiçik bir qrupun hansı nailiyyətlər əldə etmək imkanına malik olmasına ən nikbin köklənmiş zəngin təxəyyüllü adam belə təəccüblənəcək. "Uğurun qanunu"na girişi oxuyarkən bunu unutmayın, tamamilə gözləmək olar ki, o, özözlüyündə bütün həyatınızı dəyişə biləcək qanunu anlamağa sizə kömək edəcək.

İşin uğuru bu iş ilə məşğul olan adamın şəxsiyyəti ilə müəyyən edilir. Özünüzü müştərilər üçün cəlbedici ola biləcək dərəcədə dəyişdirsəniz, işiniz çiçəklənəcək. Birləşmiş Ştatların böyük şəhərlərindən hər hansı birində eyni malları eyni qiymətə onlarla mağazadan almaq olar, lakin hər zaman işi başqalarından daha yaxşı gedən bir mağaza tapacaqsınız, bunun səbəbi isə orada alıcılarla birbaşa təmasda olanların şəxsiyyətlərinə diqqət yetirən bir adamın və ya qrupun olmasıdır. İnsanlar təkcə malları deyil, həm də şəxsiyyətləri alırlar və malın, yoxsa satıcının şəxsiyyətinin onlara daha çox təsir göstərdiyi hələ də məlum deyil.

Həyat sığortası elə elmi əsas üzərindədir ki, müxtəlif şirkətlərdə onun qiyməti çox da dəyişmir, amma Amerika Birləşmiş Ştatlarında müqavilələrin əksəriyyəti belə sığorta ilə məşğul olan yüzlərlə şirkətdən yalnız onu ilə bağlanır.

Niyə? Şəxsiyyətlər! Sığorta polisini alan yüz nəfərdən doxsan doqquzu orada nə yazıldığını bilmir, ən təəccüblüsü isə budur ki, adamları bu, heç maraqlandırmır. Əslində, onlar şəxsiyyətin cəlbedici keyfiyyətlərini tətbiq etməyi bacaranların cazibədar şəxsiyyətini alırlar.

Həyatda vəzifəniz – ən azından onun xeyli hissəsi – uğur qazanmaqdır. Bu kursun anlamında uğur – "başqalarının hüquqlarını pozmadan əsas məqsədinizə çatmaqdır". Əgər özünüzdə cəlbedici şəxsiyyətin keyfiyyətlərini yetişdirməyi öyrənsəniz və müəyyən vəzifələrin həlli üçün həsəd və ixtilaf olmadan başqaları ilə işbirliyinin incəliklərini mənimsəyə bilsəniz, həyatda qarşınıza qoyduğunuz məqsədə, onun nə olduğundan asılı olmayaraq, daha asanlıqla nail olacaqsınız.

Həyatın ən mühüm problemlərindən biri, bəlkə də ən vacib olanı başqaları ilə harmonik münasibətlər qurmaq bacarığına yiyələnməkdir. Kurs insanların həyatda harmoniya və tarazlıqla irəliləyişini asanlaşdırmaq, milyonlarla adama bədbəxtlik, ehtiyac və uğursuzluq gətirən ixtilaf və ziddiyyətlərin dağıdıcı nəticələrindən azad olmaq üçün yaradılıb.

Nüfuz olmadan həyatda böyük uğur qazanmayacaqsınız, əgər siz başqalarına təsir göstərə və onlarla harmonik şəkildə əməkdaşlıq edə biləcək dərəcədə güclü şəxsiyyət deyilsinizsə, nüfuzunuz olmayacaq. Bu kurs sizə belə şəxsiyyəti özündə tədricən necə inkişaf etdirmək lazım olduğunu göstərəcək.

"Uğurun qanunu" kursundan bir-birinin ardınca aşağıdakı dərsləri mənimsəyəcəksiniz:

1. MÜƏYYƏN ƏSAS MƏQSƏD sizə həyatının məqsədini tapmağa çalışarkən əksəriyyətin tam sərf etdiyi gücü qoruyub saxlamağı öyrədəcək. Bu dərs sizi mənasız yaşamaqdan qurtarmağa kömək

edəcək və həyatınızın müəyyən, yaxşı dərk edilmiş əsas məqsədinə möhkəm bağlanmağınıza imkan verəcək.

2. ÖZÜNƏİNAM sizə bəşəriyyətin lənətləndiyi yoxsulluq qorxusu, xəstəlik qorxusu, yaşlanma qorxusu, tənqid qorxusu, kiminsə sevgisini itirmək qorxusu və ölüm qorxusu kimi altı əsas qorxunun öhdəsindən gəlməyə imkan verəcək. Dərs sizə müəyyən, faydalı biliklərə əsaslanan əsl özünəinamı eqotizmdən ayırmağı öyrədəcək.

3. QƏNAƏT VƏRDİŞİ sizə gəlirinizi mütəmadi olaraq bölməyi öyrədəcək. Şəxsi təsir mənbələrindən birini yaratmaq üçün gəlirin müəyyən faizini daim yığmaq lazımdır. Heç kim pula qənaət etmək vərdişi olmadan həyatda müvəffəqiyyət qazanmaz. Bu qaydada istisnalar yoxdur və ondan qaçmaq mümkün deyil.

4. TƏŞƏBBÜS VƏ LİDERLİK sizə seçdiyiniz sahədə kiminsə ardınca getməkdən əl çəkib lider olmağın yollarını öyrədəcək. Sizdə liderlik instinkti inkişaf edəcək, bu da tədricən sizi məşğul olduğunuz işdə lap yuxarı qaldıracaq.

5. TƏXƏYYÜL beyninizi elə stimullaşdırar ki, ağlınıza yeni ideyalar gələr və siz əsas məqsədinizə nail olmağa kömək edəcək yeni planlar hazırlayarsınız. Bu dərs sizə “köhnə daşlardan yeni evləri tikməyi” öyrədəcək. İşlənmiş, yaxşı məlum olan ideyalardan yeni konsepsiyalar yaratmağın, əski ideyalardan yeni məqsədlər üçün istifadə etməyin yollarını göstərəcək. Öz-özlüyündə bu dərs ticarət işinin tam kursuna bərabərdir və onu ciddi öyrənənlər üçün əsl qızıl mədəni olacaqdır.

6. RUH YÜKSƏKLİYİ sizə ətrafdakıların diqqətini özünüzə və ideyalarınıza yönəltməyi öyrədəcək. Ruh yüksəkliyi – bu, cəlbedici şəxsiyyət üçün vacibdir. Ətrafdakılara təsir etmək və onları sizinlə əməkdaşlıq etməyə razı salmaqdan ötrü belə şəxsiyyət olmalısınız.

7. ÖZÜNƏ NƏZARƏT – sükandır, onun köməyilə siz öz ruh yüksəkliyinizi idarə edirsiniz və onu istədiyiniz yerə yönəldirsiniz. Bu dərs sizə praktik olaraq “öz taleyinin sahibi, öz ürəyinin kapitanı” olmağı öyrədəcək.

8. İŞ ÜÇÜN ÖDƏNİLƏNDƏN ARTIQ İŞLƏMƏK VƏRDİŞİ – “Uğurun qanunu” kursunun ən mühüm dərslərindən biridir. O, sizə